# Mükafatlandırmanın əsas prinsipləri

Yerləşdirmə tarixi: 19.02.2025

"ABB-İnvest İnvestisiya Şirkəti" QSC (Şirkət) mükafatlandırma işini strateji və biznes hədəflərinin realizasiyası istiqamətində proaktiv kadr hazırlığı siyasətinin baza elementi kimi qəbul edir. Şirkətin mükafatlandırma sistemi Şirkətin strateji və biznes hədəflərinin realizasiyasını təmin edən ixtisaslı və peşəkar işçilərin saxlanılması, motivasiyası, onların fərdi və peşəkar inkişafının stimullaşdırılması, eləcə də əmək bazarından ixtisaslı və peşəkar işçilərin cəlb edilməsinə xidmət edir.

Şirkəti işçi heyətin mükafatlandırılması işində ədalətlilik, rəqabətlilik və şəffaflıq kimi prinsipləri rəhbər tutur.

## Mükafatlandırma alətləri

Şirkət əməkdaşlarını nağd və nağdsız formada olan alətlərdən istifadə etməklə mükafatlandıra bilər.

## Mükafatlandırma parametrləri

Şirkət qısa və ortamüddətli biznes hədəflərinin realizasiya səviyyəsinin ölçülməsi məqsədilə işçi heyətin fəaliyyətini istiqamətdən asılı olaraq aylıq, rüblük və ya illik əsaslarla qiymətləndirir. Qiymətləndirmə prosesində işçiyə hesabat ili üzrə təyin edilmiş hədəflərin icrası təhlil edilir. Mükafatlandırılma zamanı işçinin illik fəaliyyətinin kəmiyyət aspektləri (məs., verilmiş tapşırıqların icrası, planın yerinə yetirilməsi və s.) ilə yanaşı, keyfiyyət parametrlərinə də diqqət yetirilir. Keyfiyyət göstəricilərinə işçinin Şirkətin korporativ dəyərlərinə riayət etmə səviyyəsi, onun nizam-intizamı kimi parametrlər daxildir.